# VƏTƏNDƏ VƏTƏNSİZLİK DƏRDİ

## Nemət Veysəlliyə məktub

**Hər dəfə onunla qarşılaşanda ürəyimdən keçən bir fikri nəhayət ki, dilə gətirmək qərarına gəldim. Çünki artıq məqamıdı. İllərdi ki, mən bu sözü, bu fikri deməyə özümdə təpər tapa bilmirdim. Düşünürdüm ki, bəlkə desəm, yalnış qarşılanar, yalnış anlaşılar. Ona görə də özümü sıxıb saxlayüirdım. Bu gün isə həmin o bir-birinə sıxdığım dişlərim sözümə baxmadı. O söz, o fikir ürəyimdən dilimə, dilimdən də kağıza, bilgisayara tərəf uçub gəldi və elə olduğu kimi də səsləndi:**

- Nemətin xarakteri heç dəyişmədi

Bəli, bir az böyük çıxmasın, az qala doğulduğum gündən tanıyıram Nemət Veysəllini. Bunu ona görə içdən gələn bir sevgi ilə ifadə edirəm. Axı, mən Neməti öncə sözündən tanımışdım. Suyumuz, havamız, torpağımız bir-birinə qonşu olduğu kimi, Nemətin sözləri də mənim ürəyimdəki duyğularla, pıçıltılarla qonşu idi. Və o sözlərlə ilk təmasdan anladım ki, bəxtim gətirib həm qonşuluqda, həm də öyrənməkdə. Xüsusilə Nemətin sözündən öyrənmək, dərs almaq mənim üçün göydəndüşmə olmuşdu. Və zaman-zaman Nemət Veysəllini oxudum, bu gün də oxuyuram. Çünki onun publisistikası, onun qələmi özünəməxsusdu, elə xarakteri kimi

Bəli, həyatımda kifayət qədər yanımlı, yatımlı, duyğulu söz adamları olub. Onlarla təmasdan, onlarla bir süfrə arxasında əyləşməkdən, onları dinləməkdən ləzzət almışam. Amma həmin o adamların içərisində Nemət Veysəllinin yeri tamam fərqli olub. Öncə bunun səbəbini müəyyənləşdirməkdə çətinlik çəkmişəm. Sonra anlamışam ki, bunun bir neçə səbəbi var. Ən birincisi isə Nemət Veysəlliyə müəllim kimi baxmağım, özümü onun qarşısında şagird kimi görməyim olub.

Adamın üstündə Allah var. Nemət Veysəlli bu yazdığım cümləni, söylədiyim fikri heç vaxt nə dilinə gətirməyib, nə də büruzə verməyib. Sadəcə, onun oturuşu, duruşu, öz yerini bilməsi, xüsusilə yaradıcılığı bunu mənə aşılayıbdı. Baxıb görmüşəm ki, onun yanında mən xeyli həm yaşca, həm də söz təqdimatım baxımından kiçiyəm, balacayam. Və deməli, öyrənməyə, görüb-götürməyə daha çox ehtiyacım var. Nemət Veysəlli həm yazısında, həm söhbətində elə ifadələri, elə fikirləri mənə aşılayıb ki, onu ancaq dinləyən, oxuyan bilər. Və bu mənada istər onun və yaxud mənim ailəmdə, istər ikilikdə, istər dostlarla birlikdə olanda mən Nemət Veysəlli səmimiyyətinin içərisində bir rahatlıq da tapmışam. Bəzən kənardan baxanda adama elə gəlir ki, son dərəcə soyuqqanlı, özünə çəkilən, özünə qapılan, özünü bir az üstün tutan bir insanla yoldaşlıq, dostluq edirsən. Amma fərqinə varanda, mahiyyətə baş vuranda içini heyrət bürüyür. Qarşında tamam fərqli bir Nemət Veysəlli dayanır. Və sən onu öz ürəyini gördüyün kimi görürsən. İllah da ki, onu dinləyəndə



- Hə, Əbülfət. Ə, vallah, bir tərəfin boş buraxsan yaxşıdı. Hər adama baş qoşma. Özünə fikir ver

Bu Nemət Veysəllinin mənə hər telefon zəngində dediyi sözlərdən biri, bəlkə də birincisidi. Və yaxud da:

- Ə, Əbülfət, canın-başın nətərdi? Sağlamlığın yerindədimi? Özünə fikir ver. Evini sökürlər söksünlər dana. Tuğdakını qoruya bilmədin, bu da olsun onun bir tayı

Bəli, Nemət Veysəlli bu dünyaya göz açanda elə bil hansı yükləri çəkəcəyini əvvəlcədən bilibdi. Ona görə də özünü içdən hazırlayıb özünü dərdə, dözümə kökləyib. İstər uşaqlığında, internat məktəbində oxuyanda özü də Dağlıq Qarabağın Xocavənd qəsədəsində (keçmiş Martuni - Ə.M.) oxuyanda erməni uşaqlarla sözü çəp gələndə tələbəlik illərində, necə deyərlər, bir qarnı ac, bir qarnı tox o tələbəliyi yola verəndə sonra ilk iş yerində, xüsusilə "Ulduz" jurnalında daha sonra müxtəlif mətbu orqanlarda O, hər şeyə dözüb Hər şeyə sinə gərib və öz haqqını heç vaxt tapdalanmağa qoymayıb, imkan verməyib. Elə bil ki, bu insan öz gücünün ölçüsünü, çəkisini də bilibdi, sərhəddini də bilibdi. Ona görə də hər şeyə hazır olur.

Mən Nemət Veysəllini ikinci dəfə torpaqlarımızın işğalı başlayanda kəşf etdim. O günə qədər Nemət Veysəlli mənim üçün söz adamı idi, yazıçı-publisist idi. Ondan sonra Nemət Veysəlli mənim üçün vətən təşnəli döyüşçü-jurnalist oldu. Özü də Bakıda evi-eşiyi ola-ola iş yeri, əmək haqqı ola-ola. Bunlardan könüllü şəkildə imtina edib hərbi forma geyindi, hərbi jurnalist oldu. Beş barmağı kimi tanıdığı Qarabağı qarış-qarış gəzdi, səngər-səngər dolaşdı. Hətta tuş gəldiyi gülləfləri də eyninə almadı. Üstəlik, o, işğalın şıdırğı vaxtında ailə büdcəsinin bütün qəpik-quruşunu bir yerə toplayıb daşa, quma, sementə verdi. Nemət Veysəlli də ata yurdunda özünə ev tikməyə başladı. Hamının köçüb daşındığı bir vaxtda Nemət Veysəlli ev tikirdi. Öncə bir çoxları kimi mən də onu qınadım. Amma sonra anladım ki, Nemət Veysəlli bu kənddə xəyallarının, yuxularının evini tikir, ruhunun evini tikir. İndi and içə bilərəm ki, gecələr Nemətin ruhu məhz həmin o kənddə, o yarımçıq evdə gedib dincəlir və Nemət bununla təsəlli tapır, ürəyindəki qubarı bununla ovudur.

Mən yazının ilk cümləsində illərlə ürəyimdə dolaşdırdığım fikri diqqətə təqdim etdim. Yenə həmin o məqama qayıdıram. Nemət Veysəlli iki-üç gündən sonra 75 yaşını qeyd edəcək. Amma mənim 50 il bundan öncə tanıdığım həmin o xarakterlə, həmin o oturuşla, duruşla inanın ki, səngər də Nemətin xarakterini dəyişmədi. Ona görə də "Ədalət"in redaksiyasına gələndə öncə Nizamini soruşur. Qəzetin dizaynerini deyirəm. Doğrudur, adını demir. Sadəcə, məndən soruşur ki, o Əsgər necədi? Yenə çalışırmı?

Nemət bizim dizayneri orduda xidmət edəndən tanıyır və bu günə qədər də yaddaşında onu tanıdığı kimi saxlayıb. Və mən də ürəyimdə, yaddaşımda olan Nemət Veysəllinin 75 yaşına, yəni martın 21-nə üç gün qalmış bu yazını atüstü yazdım. İstədim ki, mənim də, Nizaminin də, Neməti tanıyıb sevənlərin də əl boyda bir təbrikini ifadə edim. Amma tam səmimiyyətlə deyirəm ki, Nemət Veysəlli kitab-kitab təbriklərə layiqdir. Xüsusilə vətəndə vətənsizliyi yaşadığına görə, o, diqqətdən kənar qalmamışdı. Axı, söz adamları, ruh adamları bir diqqətin işığında o qədər qaranlıqları aydınlıqlara çevriblər ki, Nemət də ömrünü əridə-əridə neçə-neçə kitabı, neçə-neçə fikri, neçə-neçə publisist düşüncələri aydınlığa calayıb - bizm üçün, yəni oxucu üçün.

Bəli, Nesət Veysəlli baharda doğulub ürəyi qubarlı olmaq özü də bir naxışdı. Neyləyək ki, bu naxış sənin də taleyinə yazılıbmış. 75 yaşın mübarək!

**Əbülfət MƏDƏTOĞLU**